**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№351/4** **07 dekabr 2022-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasında 2022-ci il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 5.6-cı "Təcrübəli auditorlar tərəfindən ustad dərslərinin təşkil edlməsi", 8.3-cü "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkilinin müvafiq struktur bölmələr ilə birgə həyata keçirilməsi" bəndlərinin və Palatanın sədrinin 2021-ci ilin 30 dekabr tarixində təsdiq etdiyi "Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2022-ci ildə keçirilməsi nəzərdə tutulan tədbirlərin (konfranslar, simpoziumlar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri və s.) aylar üzrə Qrafik"inin və "Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi" barədə 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli sərəncamının, Palatanın icraçı direktorunun 2021-ci ilin 01 noyabr tarixində təsdiq etdiyi "Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının və üzvlərinin 2021-ci ilin IV rübü və 2022-ci il üzrə ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə əlaqədar KİV-də fəaliyyətlərinin siyasi reytinqinə dair Tədbirlər Planının və Palatanın sədri tərəfindən 2022-ci ilin 31 oktyabr tarixində təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurasında 2022-ci ilin IV rübündə müzakirə ediləcək məsələlərin iş qrafikinə uyğun olaraq Auditorlar Palatasının Aparatı (Q.Bayramov, F.Kamalova) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən "Auditorlar Palatasında 2022-ci il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə" hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının Auditorlar Palatasında 2022-ci il ərzində fəaliyyət göstərən "dəyirmi masa", təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə" hesabat bəyənilsin (hesabat və monitorinqin nəticəsinə dair arayış əlavə olunur).

2. Auditorlar Palatasının Aparatı (Q.Bayramov, F.Kamalova) tərəfindən Auditorlar Palatası sədrinin "Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, «dəyirmi masa»lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə" 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli sərəncamına uyğun olaraq 12 ictimai-siyasi tədbirin, 1 beynəlxalq elmi-praktik konfransın, 4 "dəyirmi masa"nın, 10 ustad dərsinin, 15 seminarın yüksək səviyyədə keçirilməsi üçün təşkilati-texniki işlərin həyata keçirilməsi və keçirilmiş tədbirlərin nəticələri barədə məlumatın üç gün müddətində hazırlanıb ictimaiyyətə çatdırılması məqsədilə Palatanın internet səhifəsində və sosial şəbəkələrdə yerləşdirilməsinin təmin edilməsi işləri müsbət qiymətləndirilsin və mükafatlandırılsınlar.

3. Auditorlar Palatası sədrinin müşaviri (F.Qarayev) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov, Ş.Əsgərova) tərəfindən Auditorlar Palatası sədrinin 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli sərəncamına uyğun olaraq Palata üzvlərinin və digər iştirakçıların keçirilən tədbirlərdə onlayn iştirakı məsələsinin vaxtında həll edilməsi, Palata üzvlərinin tədbirlərdə iştirakının monitorinqinin aparılması və müvafiq qaydada rəsmləşdirilməsinin təmin edilməsi işləri müsbət qiymətləndirilsin və mükafatlandırılsınlar.

4. Auditorlar Palatası Şurasının “Auditorlar Palatasında 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərdə (konfranslar, simpoziumlar, “dəyirmi masa”lar, seminarlar, ustad dərsləri və s.) Palata üzvlərinin iştirakının monitorinqi barədə” 2022-ci ilin 30 iyun tarixli 345/6 nömrəli qərarı ilə 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərdə 7 nəfər moderatora (Q.Bayramov, F.Qarayev, N.Talıbov, Y.Namazəliyev, V.Rəhimov, E.İbrahimov, A.Cəfərov), 16 nəfər məruzəçiyə (N.Talıbov, Ü.Fətiyev, V.Rəhimov, S.Vəlizadə, A.Cəfərov, E.İbrahimov, V.Cavadov, E.Qurbanov, N.Axundov, D.Məmmədov, N.Abbaslı, Z.Qədimli, N.Niftəliyev, Z.Mikayılov, A.Səfərova, Q.Əhmədov), 4 nəfər təşkilatçıya (Z.Almazov, A.Seyidəliyeva, Ş.Əsgərova, F.Kamalova), tədbirlərdə tam iştirak edən 4 auditor təşkilatının rəhbərlərinə (“EKOL AUDIT” MMC-nin direktor-auditoru E.Quluzadəyə , "ELVİ AUDİT” MMC-nin direktor-auditoru E.İsmayılova, “L.B. Audit xidməti” MMC-nin direktor-auditoru L.Bayramovaya, “TNM Audit” MMC-nin direktor-auditoru N.Talıbova) və bir sərbəst auditora (Elnur İbrahimov) təşəkkür elan edilməsi, tədbirlərin ümumi sayının 50%-dən çoxunda iştirak edən auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların (cədvəl 1-də qeyd edilən) işlərinin müsbət qiymətləndirilməsi, tədbirlərin ümumi sayının 50%-dən az iştirak edən auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların (cədvəl 2-də qeyd edilən) gələcəkdə tədbirlərdə daha fəal iştirak etmələrinin nəzərlərinə çatdırılması, tədbirlərdə iştirak etməyən auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara (cədvəl 3-də qeyd edilən) bir daha belə hallara yol verdikləri təqdirdə barələrində daha ciddi intizam tədbirləri görülməsinə dair xəbərdarlıq elan edilməsi nəzərə alınsın.

5. Aparılmış monitorinqin nəticəsinə əsasən Auditorlar Palatasında 2022-ci ilin 1 iyul tarixindən 1 dekabr tarixinədək keçirilən tədbirlərin hər birində iştirak etmiş 21 auditor təşkilatının rəhbərlərinə və 7 sərbəst auditora təşəkkür elan edilsin və Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, 2023-cü il üzrə auditorların reytinq səviyyəsi müəyyən edilərkən nəzərə alınsın (1 saylı siyahı əlavə olunur).

6. Auditorlar Palatasında 2022-ci ilin 1 iyul tarixindən 1 dekabr tarixinədək təşkil olunan “dəyirmi masa”ların hər birində iştirak edən 13 nəfər üzvlərə təşəkkür elan edilsin (3 saylı siyahı əlavə olunur).

7. Auditorlar Palatasında 2022-ci ilin 1 iyul tarixindən 1 dekabr tarixinədək keçirilmiş tədbirlərin heç birində iştirak etməyən 52 auditor təşkilatının rəhbərlərinə, 25 sərbəst auditora və “dəyirmi masa”nın 2 üzvünə ciddi xəbərdarlıq edilsin və gələcəkdə bir daha belə hallara yol verilərsə ciddi intizam tədbirləri görülsün (2 və 3 saylı siyahılar əlavə olunur).

8. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə olunsun ki, Auditorlar Palatasında keçiriləcək tədbirlərdə daha fəal iştirak etsinlər.

9. Auditorlar Palatasında nəzərdə tutulan tədbirlərin məsul icraçılarına tapşırılsın ki, tədbirlərin vaxtında və yüksək keyfiyyətlə keçirilməsini və nəticəsi barədə məlumatların Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilməsini, zəruri hallarda KİV-də işıqlandırılmasını təmin etsinlər.

10. Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarın 2-ci və 3-cü bəndlərindən irəli gələn məsələləri həll etsin.

11. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov), Şəxsi heyət üzrə menecerə (N.Abdullayeva) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın 5-ci, 6-cı və 7-ci bəndlərindən irəli gələn məsələləri həll etsinlər.

12. Auditorlar Palatasında nəzərdə tutulan tədbirlərin məsul icraçılarına tapşırılsın ki, Auditorlar Palatasının çoxsaylı üzvlərinin müraciətlərini nəzərə alaraq bu sahədə aparılan işləri 2023-cü ildə də davam etdirsinlər.

13. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**